AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1 ISSN 2663-4368
Səhifə: 196-203 E-ISSN 2709-2699
https://doi.org/10.59849/2663-4368.2026.1.196

# Orxon -yenisey abidələrində doğum və ölüm konsepti

**Dilbər Camali**
Filologiya üzrə fəlsəfə doktoru, böyük elmi işçi
AMEA Nəsimi adına Dilçilik İnstitutu
E-mail: dilber.mehdiyeva@gmail.com
ORCID iD: https://orcid.org/0000-0002-2726-5733

***Xülasə.*** Məqalədə Orxon-Yenisey abidələrində doğum və ölüm konseptlərinin ifadə xüsusiyyətləri araşdırılır. Qədim türk yazılı abidələri türk xalqının dünyagörüşünü, həyat və ölüm haqqında təsəvvürlərini əks etdirən mühüm tarixi-mədəni mənbələrdir. Tədqiqat zamanı abidələrin mətnləri əsasında doğum və ölüm anlayışlarının semantik və koqnitiv məzmunu təhlil edilmişdir. Müəyyən olunmuşdur ki, doğum konsepti türk xalqının soyun davamı, dövlətin güclənməsi və nəslin qorunması ideyaları ilə sıx bağlıdır. Ölüm konsepti isə sadəcə bioloji sonluq kimi deyil, insanın bu dünyadan ayrılaraq əbədi aləmə keçidi, qəhrəmanlıq və şərəf anlayışları ilə əlaqələndirilir. Abidələrdə ölümün ifadəsi üçün müxtəlif leksik vasitələrdən istifadə olunmuş, xüsusilə “uçmaq”, “kərgək bolmaq” və digər ifadələr ölüm hadisəsinin mifoloji və dini aspektlərini əks etdirmişdir. Tədqiqat göstərir ki, qədim türklərin həyat və ölüm haqqında düşüncələri Göy Tanrı inancı, ata-baba kultu və qəhrəmanlıq ideologiyası ilə formalaşmışdır. Orxon-Yenisey abidələrində doğum və ölüm konseptləri qarşılıqlı şəkildə həyatın dövri xarakterini ifadə edir və türk etnomədəni təfəkkürünün mühüm komponenti kimi çıxış edir. Araşdırmanın nəticələri qədim türk dilinin semantik sisteminin və milli-mədəni dünyagörüşünün öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *Orxon-Yenisey abidələri, doğum konsepti, ölüm konsepti, qədim türklər, koqnitiv təhlil, türk dünyagörüşü və s.*

**Məqalə tarixçəsi:** göndərilib – 01.05.2026; qəbul edilib – 27.05.2026

# The Concept Of Birth And Death In The Orkhon–Yenisei Inscriptions

**Dilbar Jamali**

***Abstract.*** This article examines the concepts of birth and death in the Orkhon-Yenisey inscriptions. These ancient Turkic written monuments are important historical and cultural sources reflecting the worldview of the Turkic people and their perceptions of life and death. Based on the analysis of the inscription texts, the semantic and cognitive dimensions of the concepts of birth and death have been investigated. The study reveals that the concept of birth is closely associated with the continuation of lineage, the strengthening of the state, and the preservation of future generations. The concept of death, however, is not represented merely as a biological end but as a transition from the earthly world to an eternal realm, closely linked with heroism, honor, and spiritual values. Various lexical units and expressions are employed in the inscriptions to denote death, including terms such as “to fly away” and other metaphorical expressions that reflect mythological and religious beliefs. The findings indicate that ancient Turkic perceptions of life and death were shaped by the belief in Tengri, the cult of ancestors, and the ideology of heroism. In the Orkhon-Yenisey inscriptions, the concepts of birth and death function together to represent the cyclical nature of human existence and constitute essential elements of Turkic ethnocultural thought. The results contribute to a deeper understanding of the semantic structure of the ancient Turkic language and the cultural worldview of early Turkic societies.

***Keywords:*** *Orkhon-Yenisey inscriptions, birth concept, death concept, ancient Turks, cognitive analysis, Turkic worldview etc.*

**Article history:** received – 01.05.2026; accepted − 27.05.2026

## Giriş / *Introduction*

Orxon-Yenisey abidələri türk xalqlarının ən qədim yazılı mənbələri olmaqla yanaşı, onların dünyagörüşünü, mənəvi dəyərlərini və həyat fəlsəfəsini əks etdirən mühüm tarixi sənədlərdir. VII-VIII əsrlərə aid olan bu abidələr qədim türklərin dövlətçilik ənənələrini, ictimai münasibətlərini və dini-mifoloji təsəvvürlərini öyrənmək baxımından böyük əhəmiyyət daşıyır. Abidələrdə insan həyatının əsas mərhələləri olan doğum və ölüm hadisələri müxtəlif dil vasitələri ilə ifadə olunmuş, bu anlayışlar türk etnik-mədəni təfəkkürünün ayrılmaz hissəsi kimi təqdim edilmişdir. Doğum konsepti qədim türklərin düşüncə sistemində nəslin davamı, soyun qorunması və xalqın gələcəyinin təminatı ilə əlaqələndirilmişdir. Ölüm konsepti isə yalnız fiziki sonluq deyil, insanın başqa bir aləmə keçidi kimi qəbul edilmişdir. Bu baxımdan ölüm hadisəsi qəhrəmanlıq, şərəf və əbədi xatirə anlayışları ilə sıx bağlı şəkildə təqdim olunur. Orxon-Yenisey mətnlərində ölümün ifadəsi üçün işlədilən söz və ifadələr qədim türklərin Göy Tanrı inancını, ata-baba kultunu və axirət haqqında təsəvvürlərini əks etdirir. Məqalənin məqsədi Orxon-Yenisey abidələrində doğum və ölüm konseptlərinin semantik xüsusiyyətlərini araşdırmaq, onların qədim türk dünyagörüşündə tutduğu yeri müəyyənləşdirmək və bu anlayışların dil vasitəsilə necə konseptuallaşdırıldığını göstərməkdir.

Bütün xalqların təfəkküründə doğum və ölümlə bağlı ta qədimdən müəyyən təsəvvürlər mövcud olmuşdur. Qədim türklərin yer üzündə həyatın var olması, kainatın yaradılması ilə bağlı fikirləri artıq çoxdan formalaşmış və öz əksini yazılı abidələrdə də əksini tapmışdır. Var olma və ya yaradılma zamanı öncəliklə yerlə göy arasında "*kisi oğlu*", insan övladından bəhs olunmaqdadır. Abidələrdən *"kisi"* yəni adam, insan, şəxs və ya bir fərdi bildirən söz kimi işlənmişdir. Orxon abidələrinin ilk sətirlərində "kisi oğlu" yəni insan övladının yer və ya göy yaradılarkən ikisinin arasında yaradıldığı qeyd olunur*: "Üzə kök teŋri asra yağız yer kılıntukta ekin ara kisi oğlı kulınmıs" ("Yuxarıda göy tanrı, altda qonur yer yaradıldıqda ikisinin arasındainsan övladı yaradılmışdır")(KT,ş.,Turfan)* [Rəcəbli: 2009, s 291].

Məhz bu təsəvvür qədim türklərin kainatın və insanın yaranışı ilə bağlı kosmoqonik görüşlərinin əsasını təşkil edirdi. Orxon-Yenisey abidələrində əks olunan dünyagörüşünə görə, əvvəlcə göy və yer yaradılmış, daha sonra isə bu iki kosmik varlığın arasında insan övladı meydana gətirilmişdir. Bu anlayış qədim türklərin kainatın və insanın təsadüfi şəkildə deyil, ali və ilahi bir qüvvənin iradəsi ilə yaradıldığına inandıqlarını göstərir. Beləliklə, insanın doğuluşu yalnız bioloji hadisə kimi deyil, ilahi nizamın və kosmik harmoniyanın tərkib hissəsi kimi dərk olunurdu.

## Əsas hissə / *Main part*

Qədim türk mifoloji düşüncəsində doğum prosesi və insan nəslinin davamı xüsusi müqəddəslik daşıyırdı. Bu təsəvvürlər sistemində insanın dünyaya gəlməsinə himayədarlıq edən və doğumu qoruyan ilahi varlıq kimi Umay ilahəsi mühüm yer tuturdu. Umay ana qadınların, uşaqların və ailə ocağının qoruyucusu hesab edilir, məhsuldarlıq, nəsilartırma və övladın sağlam böyüməsi ilə əlaqələndirilirdi. Qədim türklərin inancına görə, Umay yeni doğulan uşağın taleyinə və rifahına təsir göstərən müqəddəs himayəçi funksiyasını yerinə yetirirdi.

Umay kultu yalnız türk xalqlarında deyil, həmçinin monqol və Altay xalqlarının mifoloji dünyagörüşündə də geniş yayılmışdır. Bu inancın təsiri o qədər güclü olmuşdur ki, türk xalqları İslam dinini qəbul etdikdən sonra belə Umayla bağlı bəzi təsəvvürlər xalq inanclarında, folklor nümunələrində və etnoqrafik ənənələrdə yaşamaqda davam etmişdir. Bu fakt Umay kultunun türk mədəniyyətində və kollektiv yaddaşında nə dərəcədə dərin köklərə malik olduğunu göstərir.

M. Kaşğari: *"Umayka tapınsa oğul bolur" (umaya etiqad edilərsə uşaq doğular) və yaxud da "uşaq doğulandan sonra qadının qarnından çıxan nəsnə" (plasenta)* [Kaşğarlı: 1985, s. 123] deyə, qeyd etməsi bu ilahənin doğuma yardım edən bir ilahi qüvvə olması faktını üzə çıxarır. O hətta umayı "evə gələn qonaq" olaraq da qeyd edir [Kaşğarlı: 1985, s.92].

*"Törü" – törəmək, doğulmaq: "Öd teŋri yasar, kisi oğlı, köp ölgəli (H.N.Orxun: ölüglü) törümis" ("Bəxti taleyi tanrı yazar, insan oğlu hamsı ölümlü törəmiş (KT, şm, 10).*

*"Kılınmak" –* qılınmaq. "*Üze kök teŋri asra yağız yer kılıntukda ekin ara kisi oğlı kulınmıs" ("Üstdə mavi göy, altda qonur yer yaradıldıqda ikisinin arasında insan oğlu yaranmış")* (KT, ş, 1) [Rəcəbli: 2009, s.300].

Ə.Ə. Rəcəblini bu məsələyə təqvim yönündən yanaşması heç də təsadüfi deyil. *"12 heyvanlı təqvimə əsasən bir il 365 gün 5 saatdır. İl 12 aydan ibarətdir və 1 ay isə 4 həftə 30 gündür. Günün başlanğıcı gecə yarısı, ilin başlanğıcı isə mart ayı hesab olunur. Həftənin günlərinin adı yoxdur"* [Külcü, s.2]. Düşünürük ki, qədim türklərdə körpənin on aya dünyayaya gəlməsinin səbəbi təqvimlə əlaqədardır.

Ölümlə bağlı duyulan kədər və bununla bağlı leksik vahidlər Orxonla müqayisədə Yenisey abidələrində daha çoxdur. Ümumilikdə, belə məzmunlu ifadələrin yer aldığı Yenisey abidələrini rus türkoloqu İ. V. Kormuşin boş-boşuna "ölümə təəssüflənmək" və ya "ölümə emosional reaksiya" adlandırmır [Kormuşen: 2008 s.50]. Bəli, bir türk döyüşçüsünün, atasının, qardaşının, oğlunun, həyat yoldaşının, mal-dövlət sahibinin *"uçmağa vararkən"* dilindən daşlara qayalara qazılmış şüuraltından keçən ölüm gerçəyinin bəzən bədii ifadəli, bəzən həyəcanlı, bəzən peşman, bəzən isə kədərli düşüncələridir.

Ölüm fenomeni bəşər düşüncəsinin ən qədim və universal mövzularından biri kimi bütün dövrlərdə insanların diqqət mərkəzində olmuşdur. Bu mövzu qədim türklərin dini-mifoloji dünyagörüşündə də mühüm yer tutmuş və onların həyat, insan taleyi və axirət haqqında təsəvvürlərində öz əksini tapmışdır. Xüsusilə ölən şəxslərin xatirəsini əbədiləşdirmək məqsədilə ucaldılan daş heykəllər, balballar və üzərində xatirə mətnləri həkk edilmiş Orxon-Yenisey abidələri qədim türk cəmiyyətinin ölümə münasibətini öyrənmək baxımından qiymətli mənbələr hesab olunur. Bu abidələrin mətn strukturunda ölüm mövzusu aparıcı semantik sahələrdən birini təşkil edir və insan həyatının son mərhələsi kimi deyil, mənəvi-mifoloji məzmun daşıyan bir hadisə kimi təqdim olunur.

Qədim türklərin ölüm haqqında təsəvvürlərinin formalaşmasında Tanrıçılıq inancı mühüm rol oynamışdır. Göy Tanrı inancına əsaslanan bu dünyagörüşündə insanın yer üzündəki həyatı müvəqqəti hesab edilir, ölüm isə fərdin başqa bir aləmə keçidi kimi dərk olunurdu. Həyatın mənası, ölümün mahiyyəti və ölümdən sonrakı varlığın davam edib-etməməsi ilə bağlı düşüncələr qədim türklərin mənəvi təcrübəsinin ayrılmaz hissəsini təşkil etmişdir. Bu təsəvvürlər Orxon-Yenisey abidələrinin dilində müxtəlif leksik və semantik vasitələrlə ifadə olunmuş, türk xalqının ölüm və axirət anlayışına dair görüşlərinin yazılı şəkildə günümüzə çatmasına imkan yaratmışdır.

Belə ki, türklər dəfələrlə din dəyişdirmişlər və öz tanrıçı inanclarının bəzi xüsusiyyətlərini adət-ənənələrində qoruyub saxlamışlar. Tanrıçılığa görə, *ölüm ruhu, nəfsi və canı* bildirən "tın" ın insan bədənindən çıxması ilə başlayan bir prosesdir. *"Tın"* bədəndən çıxır və göyə uçur. Daş kitabələrdən aydın olur ki, vəfat edən şəxsin ruhu quş və ya başqa heyvan cildinə girir. Bu haqda C. Bəydili yazır: *"Öldükdən sonra ruhun yaşamağa davam etdiyinə dair əski türk inancları dastanlarda da əks olunmuşdur. Ölüm zamanında ruhun bir quş cildində bədəni tərk etməsilə bağlı inanclar, çox qədim dövrlərdən türklərdə mövcud olmuşdur. Orxon abidələrindən də göründüyü kimi ölən xaqan və bəylərin ruhlarının quş kimi uçaraq Tanrı qatına getdiyinə inanılırdı. Bu səbəbdən uçmaq sözü islamın qəbul olunmasından sonra "cənnət" mənasında işlənmişdir"* [Beydili: 2014, s.2]. *"Uçmaq"* sözü islamı qəbul etdikdən sonra bir müddət işlənməyə davam etmiş və son dövrlərdə tamamilə arxaikləşmişdir. Orta dövr yazılı abidələrində ədəbi dilimizdə "*uçmaq"* sözü *"cənnət"* mənasında istifadə edilmişdir: "*Uçmağ ilən uçmağun datlu nəstələri ola, hur ilə*

*qüsur kimi və yeməklər ilən içməklər başın endürə, anun məqamı həman ol ola"* [Şeyz Səfi Təzkirəsi: 2006, s.411, 41]; Bu sözə eyni mənada "Dədə Qorqud"da və klassiklərimizin əsərlərinin dilində də rast gəlinir: "*Ağ saqallu baban yeri uçmaq olsun"* [Kitabi-Dədə Qorqud, 2004, s.124]; "*Uçmağ ilə cavidan qavışdı"* [Xətai: 2005, s.318].

*"Uçmaq"* sözünün mənşəyi ilə bağlı türkologiyada fikirlər müxtəlif olsa da sözün uç - maq feil kökündən yaranmasını aydın görmək olar. Belə ki, A. fon Qaben sözün soqd dilindən türk dilinə keçmə hesab edir [Qaben, s.244]. O, bu sözün ölmək mənası ilə əlaqəsi olmadığını düşünsə də, bu fikirlə razılaşmaq doğru olmaz. J.P.Roks da öz müəllimi A fon. Qabenin yanıldığını, sözün uç feilinə -maq məsdər şəkilçisinin artırılması ilə düzəldiyini yazır" [Qaben, s.133].

*"Sığıt" / "sığıtçı"/ "sığıta"* – ağı, ağıçı (sığıt-KT, şm. 11,sığıta- KT, ş 4, BX ş,5, sığıtçı– KT, ş, 4, şm, 11). Burada *ağı* deyənlərə sığıtçı və söylədikləri ağıya *sığıt* deyilir.Sığıt sözünü mərsiyə sözü ilə də əvəz etmək olar. Bilgə Xaqanın və Kül Tiginin dəfn mərasimində ağı deyən lər iştirak edir: "*Özi ança kərgək bolmıs. Yuğçı,s ığıtçı öñrə kün toğsıkda Bökli çölig el, Tabğac, Tüpüt, apar, Apa urum, kırqız. Üç kurıkan,otuz tatar,kıtay, tatabı bunça bonun kəlipən sığıtamıs, yuğlamıs" ("Özü eləcə həlak olmuş. Badıranlar, sıtqıyanlar, şərqdə gündoğanda Böklü çöllük eldən Tabğac, Tibet, avar, Apa Urunm, qırğız üç kurıkan, otuz tatar, kıtay, tatabı, bunca xalq gəlib sıtqımış, dəfn etmiş") (KT, ş, 4)* [Rəcəbli: 2009, s.291]. Düşünürük ki, tanrıçılıqda insanlar insan ruhunun quş cildinə girib göy aləminə çəkilməsinə inanılması ilə bağlı olaraq sözün kökünün uç feilindən yaranması fikri heç də yanlış görünmür.

Turfan abidəsində işlənən *"bəgdəmək"* sözü də cənnəti və ya behişti ifadə etməklə maraqlı bir leksik vahid kimi ortaya çıxır. Çünki cənnət mənası verən bu söz digər abidələrdə görünmür: "*Yad kişi udratı olmaz", "Uçına bəgdəməkə təgir" ("Yabançı adam təhlükəli olmaz", "ucbatından cənnətə çatır")* (Turfan) [Rəcəbli, 2009: s.507].

"Y. Çoruxlu arxeoloji qazıntılara və tapıntılara əsaslanaraq hunların, göytürklərin, uyğurların axirətə inandıqlarını bildirir" [Çoruxlu: 2000, s.121]. Ölən şəxsin əşyalarla, atı ilə dəfn edilməsi onun sonrakı dünyada bu əşyaları işlədəcəyinə və atını minəcəyinə işarə etməsi heç də təsadüfi deyil.

*"Balbal"* – daşdan yonulmuş kobud kiçik heykəllər. Türklərin ölümü *"öd tanrının əmri"* əmri sayması onların ölüm aktı ilə barışmalarını bildirdi. Döyüşdə ölməyi şərəf hesab edən türklər vəfat edən məzar yiyəsinin sağ ikən öldürdüyü insanların balballarının qoyulmasının müxtəlif səbəbləri vardır. Ölən şəxslərə və ya döyüşdə öldürülən şəxslərə qoyulan heykələri bildirən bu sözün mənasının J.P. Roksa görə, ilk dəfə tam açıqlamasını verən A. Vamberi olmuşdur. Bartolda əsaslanan J.P.Roks ölən şəxslərin balballarınıın digər dünyada həmin şəxsin xidmətində olacağına inanırdı [Roks: 1999, s.164-166]. Bilgə xaqan abidəsinin cənub tərəfində kıtaylarla və tatabı xalqı ilə döyüşdüyünü bildirən xaqan düşmənin cəsur igidlərini öldürüb balbal etdiyini deyir: "*Alp ərin ölürip balbal kılu birtim" ("Cəsur igidlərini öldürüb balbal edərək qoydum")* (BX, c, 7)[Rəcəbli, 2009, s.329]. Belə ki, ölən şəsx sağ ikən düşmən qəbilələrdən öldürdüyü insanların sayı qədər qoyulan balballarla fəxr edir.

Abidədən o da aydın olur ki, tatabı xalqı ilə döyüşən Bilgə xaqan böyük oğlu xəstələnib öləndə tatabıların başçısı Kuğ sənünün balbalını qoydururmuşlar: *"Uluğ oğlım ağrıp yok bolça Kuğ səŋünig balbal tikə birtim" (Böyük oğlum xəstələnib öləndə Kuğ sənünü balbal qoydurdum* (BX, c, 9) [Rəcəbli: 2009, s.329]*; "Alp erin balbal kısdı" (cəsur döyüşçülərini balbal qoydu")* (Ongin, 3) [Rəcəbli: 2009, s.256].

Göytürk dövrünə aid məzar komplekslərində və xatirə abidələrində rast gəlinən daş heykəllər qədim türklərin dini-mifoloji dünyagörüşünün mühüm elementlərini əks etdirir. Bu heykəllərin əksəriyyətində kişi fiqurları əllərində qədəh tutmuş vəziyyətdə təsvir edilmişdir. Tədqiqatçılar bu qədəhləri qədim türk inanc sistemində xüsusi məna daşıyan "and qədəhi" ilə əlaqələndirirlər. Qədəhin içərisində simvolik olaraq "həyat suyu"nun mövcud olduğuna ina-

nılırdı ki, bu da ölümdən sonrakı həyat və ruhun əbədiliyi haqqında təsəvvürlərlə bağlı idi. Belə heykəllər, adətən, kult xarakterli məkanlarda yerləşdirilir, onların ətrafında müxtəlif dini mərasimlər və anım ayinləri icra olunurdu.

Xüsusilə döyüşlərdə həlak olmuş igidlər və hərbi sərkərdələr üçün ucaldılan bu heykəllər bir əlində silah, digər əlində isə qədəh tutan döyüşçü obrazında hazırlanırdı. Bu təsvir forması qədim türk hökmdar və qəhrəmanlarının ikonoqrafik təqdimatının səciyyəvi xüsusiyyətlərindən biri hesab olunur. Bəzi nümunələrdə quş təsvirlərinə də rast gəlinir. Quş motivi qədim türk mifoloji təfəkküründə ruhun və onun azadlığının simvolu kimi çıxış etmişdir. Türk kosmoqonik görüşlərinə görə, insan ruhu ölümündən sonra quş şəklində göyə yüksəlir və ya müəyyən hallarda yer üzünə qayıda bilirdi. Məhz bu təsəvvürlər qədim türk dilində cənnət anlayışının "uçmaq" termini ilə ifadə olunmasına zəmin yaratmışdır.

Göytürk inanc sistemində qəhrəmanlıq və alpçılıq ideyaları mühüm yer tuturdu. İnanılırdı ki, yalnız igidlik göstərən və xüsusilə döyüş meydanında həlak olan şəxslər əbədi həyata qovuşa bilər. Buna görə də döyüşdə ölüm ən şərəfli ölüm forması kimi qiymətləndirilmiş, bu düşüncə həm yazılı abidələrdə, həm də memorial heykəltəraşlıq nümunələrində öz əksini tapmışdır.

Orxon-Yenisey abidələrində hörmət və ehtiram göstərilən şəxslərin ölümünü ifadə etmək üçün *"yok bolmak", "yoğla", "yoğlat", "uçmak", "kərgək bolmak"*, adırılmak və s. kimi əski türkcə sözlərdən istifadə etmişlər. "*Türklər ölümdən qorxmazmış, çünki ölümün birinci səbəbi tanrıdır. Tanrı diləyərsə öldürər, bütün canlılar onun əmrinə tabedir"* [96, s.129]. Bunu Kül Tigin abidəsində: *"Öd teŋri yasar, kisi oğlı köp ölgəli törəmis" ("Baxtı taleyi tanrı yazar, insan oğlu hamsı ölümlü* törəmiş") (KT, şm, 10); "*İnim Kül Tigin kərgək boltı (qardaşım Kül tigin vəfat etdi")* (KT, şm 10) [Rəcəbli, 2009, s.296].

"*Qədim türklərdə yas tutanlar qara geyər, üzünü cırar, ağılar deyərmişlər"* [Roks: 1999, s.456]. Bilgə Xaqan qardaşının yas mərasimindən bəhs edərkən yasa gələnlərin ağı deməlırindən, üç-gözlərini dartıb cırmasından danışır: "*Bunca bodun saçın, kulkakın yaŋakın bıçdı" ("Bunca xalq saçını yoldu, qulağını yanağını cırdı"). (BX, c, 12)[*Rəcəbli: 2009, c. 1, s.329]; *"Ança sakıntım. Közdə yaş kəlsər, eti də köŋültə sığıt kəlsər, yanturu sakıntım, katığdı sakıntım Eki şad ulayu iniyigünim, oğlanım bəglərim, bodunım közi, kaşı yablak boltaçı tip sakıntım. Yoğçı, sıkıtçı, kıtay, tatabı bodun başlayu Udar Sənun kəlti". ("Eləcə düşündüm. Gözdən yaş gəlsə, könüldən güclü sıtqı gəlsə, yanaraq düşündüm. İki şad digər kiçik qohumlarmı, oğlanlarım, bəylərim, xalqımın gözü pis olası deyib düşündüm. Dəfn edən, mərsiyə deyən kıtay, tatabı xalqından başda Udar Sənun gəldi")* (KT, şm, 11 -12)[Rəcəbli: 2009, s 297]*, Üç yetmiş yaşımka adırıltım (altımış üç yaşımda ayrıldım (öldüm)) (Uyuk Turan 1*) [Rəcəbli: 2009, s.232].

J.P. Roks ruhun yenidən dünyaya qayıda bilməsini iddia edərək yazır: *"Yenisey abidələrində ölünün geri dönüşü arzu şəklində təzahür edir. Ölüçağırma mərasimlərinin məqsədi də bu arzunun gerçəkləşməsidir* [Roks: 1999, s.156]. Bir məqamı da qeyd edək ki, biz abidələrdə hər hansı ölüçağırma adətinə rast gəlmirik.

Yenisey abidələrində tez-tez ölünün dilindən birinci şəxsdə, keçmiş zamanda "*öldüm"*, "*adırıltım"*, "yok boldum" sözləri işlənir və ya İhe-Ashete abidəsində "*adırılmıs ölügmə yığlayu bertim (ayrılmış ölümə ağladım)"* ifadəsi işlənməkdədir. Ongin abidəsində: *"Ol kan yok boldukta" (o xan yox olanda)" (O, ön, 1), "Atam, eçim ölti" ("Ataçım öldü")* (O, sağ, 7) [Rəcəbli: 2009, s.325].

Bir çox dində olduğu kimi tanrıçılıq dini inancında da ölümdən sonrakı həyatın var olmasına inanmışlar. Xüsusilə, diqqətimizi çəkən bir məqam ondan ibarətdir ki, Abakan abidəsində "*iç yer*" sözü yeraltı aləmin varlığı fikrini təsdiqləməsidir: "*İç yer ilki arzun. Atçıl ap tutuk yok yok adaş ilk isizimə atağ öküz at yok yıta. Daxili yer ilk artsın. Şöhrətli alp tutuk yoxdur, yoxdur. Yoldaş ilk sizə ataq öküz, at yoxdur, əfsus!" (Abakan, 4*)[Rəcəbli: 2009, s. 146].

J.P. Roks ölünün basdırılacağı günün mövsümə görə dəyişdiyini bildirir. O, Çin qaynaqlarına əsaslanaraq bildirir: "*Əgər bir insan yazda*

*və ya yayda vəfat edərsə, bu şəxs ağacın yarpaqları saralıb töküldükdən sonra dəfn oluna bilərdi"* [Roks: 1999, s.107]. Kül tigin abidəsindən də göründüyü kimi onun ölüm günü ilə dəfn günü arasında mövsüm fərqi var: *"Kül tigin koy yılka yiti yegirmikə uçdı, tokuzınç ay yiti otuzka yoğ ertürtimiz" ("Kül Tigin qoyun ilinin on yeddisində vəfat etdi, doqquzuncu ayın iyirmi yeddisində dəfn etdik")(KT, şm -şr, 1)* [Rəcəbli: 2009, s.306].

Türklərə görə, ölüm ruhun bədəni bir daha dönməmək üzrə tərk etməsidir. Əslində ruh bədəni yalnız öldüyü zaman deyil yuxuda da tərk edir. C. Bəydili Çin qaynaqlarına əsaslanaraq söyləyir ki, Kitabi Dədə Qorqud"da da yuxuya "kiçik ölüm" deyilməsi bu səbəbdəndir. Qədim türklərdə fərqli zamanlarda fərqli dəfn adətləri var idi, ancaq göytürklərdə dəfn və yas tutma adətləri oğuzlardan və qırğız-qazaxlardan fərqli deyildi. Qədim türk dəfn adətlərinə görə ölüylə birlikdə dəfn edilən əşyaların hamsını sındırarmışlar. Çünki digər dünyada hər şeyin tərsinə olacağına inanılırmış.

Bundan başqa son dövrlərdəki arxeoloji qazıntılarda xaqanlara məxsus kurqanlardan tapılan bəzi əşyaların saf, bəzilərinin hətta boyalarının belə solmadığı görülür. Misal olaraq, son illərdə kəşf olunmuş kurqanı göstərə bilərik. Belə ki, Birinci Göytürk xaqanlığı dövrünə aid olan bu yeraltı məzar, kurqan, Monqolustanın paytaxtı Ulan-Batordan 200 km. cənub-qərbində, Ötükən bölgəsində tapılmış, Göytürk hökmdarlarından birinə aid olduğu təxmin edilməkdədir. Məzarda diqqəti çəkən məqamlardan biri xaqanın buddist adətlərə görə yandırılaraq, yanında çeşidli əşyalarla dəfn olunmasıdır. Tarixdən bir müddət Bilgə xaqanın buddizmə meyl etməsi və vəziri Tonyukyukun təzyiqi ilə bundan yayındığı bəllidir, ancaq abidələrdə xaqanın və ya hansısa şəxslərin yandırılaraq dəfn olunması adəti görülməməkdədir. J.P.Roksa görə, Altay xalqlarının inancında insan öldükdən sonra dörd cür dəfn olunurdu :

*1. "Ağacların üstünə asılaraq sərgilənən cəsədlər*

*2. Heyvanlara tərkedilən cəsədlər:*

*3. Yandırılan cəsədlər*

4. *Mumyalanan cəsədlər"* [Roks: 1999, s.236].

Orxon-Yenisey abidələrində ölünün yandırılmasına, mumyalanmasına rast gəlinmir. Xaqan nəslinə mənsub olanlar mütləq şəkildə fərqli zamanda və fərqli mövsümlərdə də olsa dəfn olunurdu. Orxon-Yenisey abidələrində ölülərin yalnız dəfn olunması adəti görülməkdədir. Ayrıca, xaqan nəslinə mənsub insanlar öldürülərkən qanları yerə axmamalı idi. Bu inanca görə siyasi məqsədli öldürülən dövlət adamları və ya xaqan nəslinə mənsub şəxslər boğularaq, xalçaya bükülüb sürülərək öldürülərmiş. J.P. Roksa: "*Altay xalqlarında xaqan nəslinə mənsub şəxslərin boğularaq, xalçaya bükülüb sürülərək öldürülməsi ənənə idi"* [Roks: 1999, s.121]. Lakin bu kimi faktlar göytürklədə olsa da Orxon-Yenisey abidələrinin mətnlərində bu kimi faktlara rast gəlinmir.

Ölümlə bağlı digər ifadə də "*yok bolmak" yox olmaqdır: "Ər ərdəmi üçün eçimə yıta yoklad"ı (İgid cəsurluğu üçün böyük qardaşım əfsus,* həlak oldu) (III Uybat) [Rəcəbli: 2009, s.99]

*"Kaçmak"* – qaçmaq. Bu söz yeganə sözdür ki, öz real mənasından uzaqlaşaraq ölmək məzmunu ifadə edir: "*Teŋri elimkə başda (yaxud yaşda) bəgimkə bökmədim, sizimə kırk yaşımda kaçdım"* (Y, 16) [Rəcəbli: 2009, s.57].

*"Yoğ" / "yoğla" / "yoğlat" – dəfn etmək, dəfn etdirmək, basdırmaq. "Yoğ" / "yuğ"* dəfn mərasimini ölən şəxs üçün keçirən türklərdə əsas mərasimlərdən biri idi. A. İnan yoğ mərasiminin ölən şəxsin heykəlinin yanında keçirildiyini yazaraq bildirirdi ki, bu adət sonralar xristian qıpçaqlarda və müsəlman qırğız –qazaxlarda qalmışdır [İnan: 1998, s.61]. Yoğ/yuğ mərasiminə abidələrdə dəfələrlə rast gəlirik: "*Lazğın yıl bisinç ay yiti otuzka yoğ ertürdim" (Donuz ili beşinci ayın iyirmi yeddisində dəfn etdirdim) (BX, c, 10); "Katun yok bolmıs erti. Anı yoğlatayın, - tidi" (Xatun yol olmuşdu (vəfat etmişdi. Onu dəfn edim, dedi.) (T, şm, 31);* [Rəcəbli: 2009, s.271].

*"Yemlig"- "qurbanlıq"* - qurban qədim kultlardan biridir. Belə ki, tanrıya və vəfat edən xaqanlara qurbanlar verilərmiş. Abidələrdə yalnız bir dəfə yemliğ, yəni qurbanlıq sözü ilə qarşılaşırıq: "*Teŋri elimtə yemlıg bən (müqəddəs*

*elimdə və ya elimdən qurbanlığam") ("Uyuk Turan abidəsi")* [Rəcəbli: 2009, s.308].

Qurban kəsmə və ya qurban vermə adətləri ən çox ölü dəfnetmə zamanı görülür. Qırğızlar suya və ağaclara, yakutlar daş məbədlərə qurban verərmişlər. Qurbanlıq kimi isə ən çox at görülsə də, digər heyvanların da qurban verilməsi arxeoloji qazıntılardan bəlli olur. Abidələrdə insan qurban vermə faktı görülmür. S.Göməçə görə türklərin dini inancında qurbansız ritual yox idi. Ancaq o qeyd edir ki, bunun qarşılığında qurban sözünü qarşılayacaq bir söz görülməməkdədir [Gömeç, 1998, s.44]. Bunun əksinə olaraq E. Esin Çin qaynaqlarında türklərin dini ayinə hazırlıq görmək üçün ova çıxaraq yaban atı və ceyran ovlamalarının yazıldığını, dini ayin sonunda *"tapıq" (qurban)* ətlərinin tanrıya qurban verilməsi şöləninin mövcudluğunu qeyd edir [Esin: 1978, s.49].

Maraqlısı burasındadır ki, A. İnan, "Divanü-lüğət-it Türk" də şamanizmə aid sözləri araşdırarkən M. Kaşğarinin "yoğ" // "*yuğ"* sözünü *"yas mərasimindən üç və yaxud yeddi günə qədər verilən aş, yemək"* mənasında işləndiyini bildirir və bu adəti şamanist türklərə aid edir [İnan, s.45], [Kaşğarlı, 1986, 143, 309] Lüğətdə "*yoğ basan" sözü ölümdən sonra yeddi gün verilən yemək"anlamında verilir* [Kaşğarlı: 1986, 399].

## Nəticə / *Conclusion*

Aparılan tədqiqat göstərir ki, Orxon-Yenisey abidələri qədim türklərin həyat, insan və kainat haqqında düşüncələrini əks etdirən zəngin mənbədir. Abidələrdə doğum və ölüm konseptləri yalnız bioloji hadisələr kimi deyil, geniş mənəvi və mədəni məzmun daşıyan anlayışlar kimi təqdim olunur. Doğum nəslin davamlılığını, xalqın və dövlətin gələcəyini ifadə edən mühüm dəyər kimi qiymətləndirilir. Bu konsept türk cəmiyyətində ailə, soy və birlik ideyaları ilə sıx bağlıdır. Ölüm konsepti isə insan həyatının sonu olmaqla yanaşı, yeni bir mərhələnin başlanğıcı kimi dərk edilir. Mətnlərdə işlədilən *uçmaq, uça barmaq, kergek bolmak, sığıtçı, çığtamak, yemlig, tamu, begdemek, iç yer, yog* və digər ifadələr ölüm hadisəsinin mifoloji və dini məzmununu ortaya qoyur. Bu ifadələr qədim türklərin ruhun ölməzliyinə və insanın başqa bir aləmdə varlığını davam etdirməsinə inandıqlarını göstərir. Xüsusilə hökmdar və qəhrəmanların ölümü xalqın taleyi və dövlətin gələcəyi ilə əlaqələndirilərək yüksək emosional çalarda təsvir olunur. Orxon-Yenisey abidələrində doğum və ölüm konseptləri qədim türk dünyagörüşünün əsas elementlərindən biri kimi çıxış edir. Bu konseptlərin tədqiqi türk dilinin semantik imkanlarını, qədim türklərin mənəvi-mədəni dəyərlərini və etnik yaddaşını daha dərindən anlamağa imkan verir. Abidələr türk mədəniyyətində həyat və ölüm anlayışlarının formalaşma tarixini öyrənmək baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Orxon-Yenisey abidələrinin dilində doğum və ölümlə bağlı leksik vahidlərin təhlili göstərir ki, qədim türklərin doğum *(toğmak, kılınmak, törümək)* və ölümlə bağlı düşüncələri müəyyən mənada formalaşmış dildə də öz ifadəsini tapmışdır. Ölən şəxs vəfat etdikdə *(kərgək boldu, uçdu, adırıldı, yok boldu, kaçtı*),"tın"ı bədəndən çıxıb uçur, ölən şəxs öldüyü gün yox, fərqli mövsümlərdə dəfn olunur, ölüyə qurbanlar *(yemlig)* verilir, yas(yoğ mərasimi) mərasimi təşkil olunur, ölən şəxsin üzəri örtüklə *(eşükəyi)* örtülür, yasda ağı deyənlər gəlir*(sığıtçı),* ağı deyilir *(sığıt),* ölüyaxınları üz-gözünü cırır, saçlarını dartıb yolur, vəfat edən şəxsə daş abidə ucaldılır, öldükdən sonra cənnətə (*bəgdəmək)* gedəcəyi barədə təsəvvürlər mövcuddur, (abidələrdə cəhənnəmlə bağlı hər hansı leksik vahid mövcud deyil) ölən şəxsin sağ ikən həyatda öldürdüyü düşmənlərin sayı qədər *"balbal"* qoyulur.

**Ədəbiyyat / *References***


1. Təkləli M. A. (1999). *Qərbdən şərqə ulu türk yurdlarının dəyişdirilməsi tarixindən*. Elm.
2. Rəcəbli Ə. Ə. (2002). *Göytürk dilinin morfologiyası*. Bakı Universiteti Nəşriyyatı.
3. Rəcəbli Ə. Ə. (2006). *Qədim türk yazısı abidələrinin dili* (C. 1). Nurlan.
4. Rəcəbli Ə. Ə. (2010). *Qədim türk yazısı abidələri* (c. 2). Nurlan.
5. Rəcəbli Ə. Ə. (2009a). *Qədim türk yazısı abidələri* (c. 1). Nurlan.
6. Rəcəbli Ə. Ə. (2009b). *Qədim türk yazısı abidələri* (c. 2). Nurlan.
7. Kaşğarlı M. (1985). *Divanü lüğat-it-türk* (B. Atalay, Tərc.; c. 2). Türk Dil Kurumu Yayınları.
8. Külcü R. Türklerin kültür mirası "12 hayvanlı Türk takvimi". Retrieved June 17, 2026, from http://dergipark.gov.tr/download/article-file/286479
9. İnan A. (1998). Divanü lüğat-it-türk'te şamanizme ait kelimeler. Retrieved June 17, 2026, from http://turkoloji.cu.edu.tr/ESKI%20TURK%20DILI/3.php
10. Кормушин И. В. (2008). *Тюркские Енисейские эпитафии (грамматика и текстология)*. Наука.
11. *Şeyx Səfi təzkirəsi (Səfvətüs-Səfa-nın XVI əsr türk tərcüməsi).* (2006). Nurlan.
12. *Kitabi-Dədə Qorqud*. (2004). Öndər Nəşriyyatı.
13. Xətai. (2005). *Əsərləri*. Şərq-Qərb.
14. Gabain A. von. *Eski Türkçenin yazı dili* (S. Paylı, Tərc.). Retrieved June 17, 2026, from http://turkoloji.cu.edu.tr/ESKI%20TURK%20DILI/gabain_01.pdf
15. Roux J.-P. (1999). *Altay Türklerinde ölüm*. Kabalcı Yayınevi.
16. Gömeç S. (1998). Şamanizm ve eski Türk dini. *PAÜ Eğitim Fakültesi Dergisi, 4*, 39–51.
17. Esin E. (1978). *İslamiyetten önceki Türk kültür tarihi ve İslam'a giriş*. Edebiyat Fakültesi Matbaası.
18. Kaşğarlı M. (1986). *Divanü lüğat-it-türk* (B. Atalay, Tərc.; c. 1). Türk Dil Kurumu Yayınları.